AKTIN NÖVÜ	**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI**
QƏBUL EDİLDİYİ TARİX	**22.03.2006**
QEYDİYYAT NÖMRƏSİ	**87**
ADI	**“Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**
RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ	**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-03-2006, Nəşr nömrəsi: 03, Maddə nömrəsi: 306)**
QÜVVƏYƏ MİNMƏ TARİXİ	**22.03.2006**
AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU	**180.000.000**
HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ	
HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX	**01.07.2011**

“Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanının 1.9-cu bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ

Bakı şəhəri, 22 mart 2006-cı il
87

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 22 mart tarixli 87 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi

Q A Y D A S I

1. Ümumi müddəalar

Bu Qayda “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanının 1.9-cu bəndinə əsasən hazırlanmışdır və aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi qaydasını müəyyən edir.

2. Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi və maliyyə mənbələri

2.1. Aviasiya qəzalarının və insidentlərinin araşdırılması üzrə axtarış və qəza-xilasetmə işlərinin aparılması ilə bağlı xərclər:

axtarış-hava və dəniz gəmilərinin istifadə olunması;

yerüstü nəqliyyat vasitələrinin istifadə olunması;

evakuasiya işləri;

digər xərclər.

2.2. Aviasiya qəzalarının və insidentlərinin araşdırılması üzrə (zəruri hallarda) mütəxəssislərin iştirakı ilə bağlı xərclər:

yaşayış yeri üçün xərclər;

gündəlik xərclər;

hadisə yerinə gəlmə və geri qayıtma ilə bağlı xərclər daxil olmaqla, nəqliyyat xərcləri;

digər xərclər.

2.3. Hava gəmiləri aqreqatlarının və hissələrinin *araşdırılması* üzrə işlərin yerinə yetirilməsinin təşkili ilə bağlı xərclər (zəruri hallarda):[1]

aqreqatların və hava gəmisi hissələrinin *araşdırma* yerinə gətirilməsi və geri qaytarılması ilə bağlı nəqliyyat və gömrük xərcləri;

araşdırma aparan təşkilatlar tərəfindən təqdim olunmuş hesabata müvafiq digər xərclər.

2.4. Aviasiya hadisəsini *araşdıran* komissiyanın fəaliyyətinin təmin olunması ilə bağlı xərclər:[2]

dəftərxana ləvazimatı və texniki vasitələr üçün;

nəşr materiallarının çap edilməsi üçün;

digər xərclər.

2.5. Aviasiya hadisəsini *araşdıran* komissiyanın fəaliyyəti üçün məsrəflər aşağıdakı qaydada maliyyələşdirilir:

Azərbaycan Respublikasının dövlət mülkiyyətinə mənsub olan hava gəmiləri aviasiya qəzasına və ya insidentinə məruz qaldıqda - dövlət büdcəsindən;

özəl sektora mənsub hava gəmiləri aviasiya qəzasına və ya insidentinə məruz qaldıqda - müvafiq aviasiya təşkilatlarının mərkəzləşdirilmiş vəsaitləri hesabına.

2.6. Dövlət büdcəsindən aviasiya qəzalarını və insidentlərini araşdıran komissiyanın fəaliyyəti üçün məsrəflər Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə müvafiq mənbədən ayrılır.

2.7. Aviasiya hadisəsini *araşdıran* komissiyanın fəaliyyəti üçün ayrılan məsrəflər aviasiya qəzasının baş verməsində təqsirli olan şəxslərdən qanunvericiliklə müəyyən edilmiş qaydada sonradan tutulur və müvafiq mənbəyə qaytarılır.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 21 yanvar 2019-cu il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 167)**

QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 21 yanvar 2019-cu il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 167)** ilə “Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi Qaydası”nın 2.3-cü bəndinin birinci abzasında “**təhqiqi**” sözü “**araşdırılması**” sözü ilə, ikinci abzasında “**təhqiqat**” sözü “**araşdırma**” sözü ilə, üçüncü abzasında “**təhqiqat təşkilatları**” sözləri “**araşdırma aparan təşkilatlar**” sözləri ilə əvəz edilmişdir.

[2] 21 yanvar 2019-cu il tarixli **23** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 167)** ilə “Aviasiya qəzasının və insidentinin araşdırılması üzrə işlərin maliyyələşdirilməsi Qaydası”nın 2.4-cü, 2.5-ci bəndlərin birinci abzaslarında və 2.7-ci bəndində “**təhqiq edən**” sözləri “**araşdıran**” sözü ilə əvəz edilmişdir.